**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

# Azərbaycan Respublikası Auditorlar Palatasının
# Auditor adı almaq üçün İmtahan Komissiyası haqqında
# Ə S A S N A M Ə

**Bakı – 2025**

***Azərbaycan***
***Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2025-ci il 02 may tarixli 376/3 nömrəli***
***Qərarı ilə təsdiq edilmişdir.***

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**Auditor adı almaq üçün İmtahan Komissiyası haqqında**

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Auditorlar Palatasının Auditor adı almaq üçün İmtahan Komissiyasının Əsasnaməsi (bundan sonra “Əsasnamə” adlandırılacaq) “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə və digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublikasında auditor adı almaq üçün keçirilən imtahanların Beynəlxalq Mühasiblər Federasiyası (IFAC), Beynəlxalq Peşəkar Mühasiblərin Təhsil Standartları (IAESB), Beynəlxalq Təhsil Standartları (BTS), Beynəlxalq Audit və Təminat Standartları Şurası (IAASB) tərəfindən müəyyən edilmiş Beynəlxalq Audit Standartlarının (ISA) tələbləri, tədris və davamlı peşə təhsili proqramlarında beynəlxalq təcrübə nəzərə alınmaqla yüksək tələblər səviyyəsində və tam obyektivlik şəraitində keçirilməsini təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikası Auditorlar Palatasının Auditor adı almaq üçün imtahan Komissiyasının (bundan sonra “İmtahan Komissiyası” adlandırılacaq) fəaliyyətini tənzimləyir.

1.2. İmtahan Komissiyası Azərbaycan Respublikası Auditorlar Palatası (bundan sonra “Palata” adlandırılacaq) sədrinin əmri ilə yaradılır.

1.3. İmtahan Komissiyası öz fəaliyyətində “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamə”ni, qüvvədə olan qanunvericilik aktlarını, Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) tələblərini, “Auditor adı almaq üçün imtahanların keçirilməsi Qaydaları”nı, Palata rəhbərliyinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. İmtahan Komissiyasının tərkibi Palatadan üç nəfər, Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən bir nəfər, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bir nəfər, Azərbaycan Respublikasının Mərkəzi Bankından bir nəfər, iqtisadçı alimlərdən bir nəfər, sərbəst auditorlardan bir nəfər və auditor təşkilatlarından bir nəfər nümayəndə daxil edilməklə, cəmi doqquz nəfərdən ibarət təşkil edilir.

1.5. İmtahan Komissiyasının sədri Palata sədrinin əmri ilə İmtahan Komissiyasının üzvləri arasından bu vəzifəyə təyin olunur.

## II. İmtahan Komissiyası üzvlərinin vəzifələri

İmtahan Komissiyası üzvlərinin vəzifələri aşağıdakılardan ibarətdir:

2.1. Auditor adı almaq üçün imtahanların yüksək səviyyəsində keçirilməsini təmin etmək;

2.2. İmtahanların keçirilməsi üçün təşkilati-texniki tədbirlər görmək, imtahanların keçirilməsi haqqında və nəticələri barədə ictimaiyyəti məlumatlandırmaq;

2.3. İmtahanların proqramını, imtahan testlərinin məzmununu, quruluşunu müəyyənləşdirmək və təsdiq etmək;

2.4. İmtahanlarda müəyyən olunmuş qaydalara riayət olunmasını təmin etmək;

2.5. İmtahan Komissiyasının səlahiyyətlərinə aid edilmiş məsələlərin müzakirəsi və vəzifələrin həyata keçirilməsi üçün mütəmadi olaraq iclaslar keçirmək;

2.6. İmtahan vermiş şəxslərin bilik səviyyəsinin və imtahanların nəticələrinin yoxlanılmasını və qiymətləndirilməsini təmin etmək;

2.7. İmtahanların nəticələrini müəyyən olunmuş qaydada rəsmiləşdirilməsində iştirak etmək;

2.8. İmtahanların keçirilməsi haqqında Palataya apellyasiya şikayəti verildikdə, Apellyasiya Komissiyasının işində müəyyən olunmuş qaydada iştirak etmək.

## III. İmtahan Komissiyasının üzvlərinin hüquqları

İmtahan Komissiyasının üzvləri aşağıdakı hüquqlara malikdirlər:

3.1. İmtahan Komissiyasının iclaslarında iştirak etmək, müzakirə olunan məsələlərə dair təkliflər vermək və rəy bildirmək, qəbul olunan qərarlar barədə səs vermək;

3.2. Auditor adı almaq üçün keçirilən imtahanlarda iştirak etmək;

3.3. İmtahan vermək üçün təqdim edilmiş sənədlərin düzgünlüyünü yoxlamaq və rəy bildirmək;

3.4. İmtahanların proqramının, testlərin və biletlərin məzmununun və quruluşunun müəyyən edilməsində iştirak etmək, təklif və tövsiyələr vermək;

3.5. İmtahanların gedişində tələb olunan qaydalara riayət olunmasına nəzarət etmək, bu qaydalara əməl etməyən şəxs barədə lazımi tədbirlər görmək;

3.6. Keçirilmiş imtahanların nəticələrinə görə tərtib olunan qərarda imtahan vermiş şəxslərin bilik və bacarığını qiymətləndirmək, şəxsi mövqeyini qeyd etmək və qərarı imzalamaq.

## IV. İmtahan Komissiyasının işinin təşkili

4.1. İmtahan Komissiyasının sədri auditor adı almaq üçün imtahanların keçirilməsi üçün zəruri olan işlərin görülməsini təşkil edir və İmtahan Komissiyasının işinə rəhbərlik edir. İmtahan Komissiyasının üzvlərinin üçdə iki hissəsi, o cümlədən İmtahan Komissiyasının sədri iştirak etdikdə İmtahan Komissiyası iclas və imtahan keçirmək, eləcə də qərar qəbul etmək üçün səlahiyyətlidir.

4.2. İmtahan Komissiyasının iclaslarında qərarlar sadə səs çoxluğu ilə qəbul olunur.

4.3. Səsvermə zamanı İmtahan Komissiyaslnın hər üzvü bir səsə malikdir.

4.4. İmtahan Komissiyasının hər hansı bir üzvü İmtahan Komissiyasının işində mütəmadi olaraq iştirak etmədikdə, o, təmsil etdiyi təşkilatın rəhbərliyi ilə razılaşdırılmaqla Palata sədrinin əmri ilə başqa bir uyğun şəxslə əvəz olunur.

4.5. İmtahan Komissiyasının üzvləri imtahanların yüksək səviyyədə və tam obyektivlik şəraitində keçirilməsinə görə məsuliyyət daşıyırlar.

4.6. İmtahan Komissiyasının üzvlərinə Palata sədrinin əmri ilə müəyyən edilmiş məbləğdə və qaydada haqq ödənilir.

4.7. İmtahan Komissiyasının hər hansı bir üzvü Komissiyanın işində iştirak edərkən bu Əsasnamə ilə müəyyən olunmuş qaydaları pozduqda və ya etika normalarına zidd hərəkət etdikdə Palata sədrinin əmri ilə İmtahan Komissiyasının tərkibindən çıxarıla bilər.